**Oruc QULİYEV**
*AMEA-nın dissertantı*

# BAKI ŞƏHƏRİNDƏ KİTABXANA-İNFORMASİYA RESURSLARININ YERLƏŞMƏSİ VƏ SAHƏVİ STRUKTURUNUN TƏHLİLİ (I MƏQALƏ)

*Açar sözlər: kitabxana-informasiya resursları, sahəvi struktur, kitabxanaların yerləşməsi, Yasamal rayonu, Səbail rayonu, MKS*

*Keywords: Library and Information Resources, branch structure, the location of libraries, Yasamal, Sabail district Centralized Library System*

*Ключевые слова: библиотека и информационные ресурсы, отраслевая структура, местоположение библиотек, Ясамальский, Сабаильском р-н, Централизованная библиотечная система.*

*Məqalədə Azərbaycan Respublikasının iri şəhərlərindən olan Bakı şəhərinin Səbail və Yasamal inzibati rayonlarında kitabxana informasiya resurslarının yerləşməsi məsələlərindən və onun sahəvi quruluşundan söhbət açılır.*

Giriş: Cəmiyyətin informasiya tələbatlarının daha tam və operativ şəkildə ödənilməsində kitabxananın yerləşdirilməsinin mühüm əhəmiyyəti vardır. Kitabxana şəbəkəsinin yerləşdirilməsi əhalinin sayı və sıxlığı, yaş həddi, ailə vəziyyəti, təhsili, eləcə də sosial-peşəkar qruplara mənsubluğu kimi göstəricilər sistemi ilə sıx bağlıdır. Bu göstəricilərin kitabxana işinin təşkili xüsusiyyətləriylə qarşılıqlı əlaqədə öyrənilməsi, kitabxananın inkişafının xarakteri və şəraitindəki dəyişiklikləri izləməyə imkan verir. Kitabxananın yerləşdirilməsinə əhalinin sıxlığının, konkret ərazidə əhalinin məskunlaşma dərəcəsi kimi göstəricilərin çox böyük təsiri vardır. Əhalinin yüksək sıxlığı, yaşayış məntəqələri şəbəkəsi, onların bir-birinə bağlılığı informasiya mühitinin zənginliyini, kənd sakinlərinin şəhər kitabxana şəbəkəsindən istifadə etmə imkanlarını müəyyənləşdirir. Respublikamızda kitabxana-informasiya resursları zəngin tarixi ənənələrə malikdir. Bu biblioqrafik ehtiyat cəmiyyətin informasiya təminatında mühüm rol oynayır. Xususilə Azərbaycanın iri şəhərlərindən Bakı şəhərində yerləşən informasiya resurslarının şəhər əhalisinin biblioqrafik informasiya təminatında mühüm əhəmiyyəti vardır.

Əsas hissə: Məlumdur ki, Bakı şəhəri 11 rayon və 61 qəsəbədən ibarətdir. Bakı şəhər ərazi dairəsinin ümumi sahəsi 2158.2 km²-dir. 2009-cu ilin statistik məlumatlarına əsasən Bakı şəhərində 717 kitabxana fəaliyyət göstərir. Bu respublika kitabxana resurslarının 8, 4%-ni təşkil edir. Eyni zamanda Bakı şəhərində mövcud olan kitabxana resurslarının şəhər yerlərində yerləşdiyini nəzərə alsaq, bu rəqəm həmin meyar üzrə ölkə kitabxana ehtiyatlarının 30, 9%-i deməkdir (2, , s.26-27)



Azərbaycan prezidenti cənab İlham Əliyevin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsi 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" na əsasən 05 yanvar 2011-ci il tarixində Bakı şəhərinin9 rayonunda MKS yaradılmışdır. Ölkəmizdə mərkəzləşdirmənin müvəffəqiyyətlə həyata keçirilməsi və bu işin yekunlaşdırılması bu mühüm dövlət tədbirinin böyük üstünlüklərə malik olmasını, kitabxana xidmətinin təşkilində ciddi keyfiyyət dəyişikliklərinin baş verməsini, kitabxana işinin perspektiv inkişafı üçün əhəmiyyətli nəticələr əldə edilməsini aşkara çıxardı. Beləliklə, XX əsrin 70-ci illərindən ölkəmizin kitabxana sistemlərinin təkmilləşməsi üçün böyük strateji əhəmiyyətə malik olan bir konsepsiya kimi qəbul edilmiş mərkəzləşdirmə informasiyalaşdırma əsri olanXXI əsrin kitabxanalarının qarşısında qoyduğu tələblərə cavab verir, onun inkişaf etdirilməsi və təkmilləşdirilməsi zəruriyyətini irəli sürür.

Qeyd olunduğu kimi, Azərbaycan respublikası Dövlət Statistika Komitəsinin "Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələrinə görə kütləvi kitabxanaların sayı 3812, onlardan 576-sı, 15.1%-i şəhər yerlərində, 3236-sı, 84.9%-i kənd yerlərində, onlarda olan kitab fondunun ümumi sayı 35528523 nüsxə olmuşdur. Onlardan 17074881 nüsxəsi 48.1%-i şəhər yerlərində, 18453642 nüsxəsi 51.9%-i kənd yerlərində yerləşir (2, s.7).

Tədqiqat apardığımız regionlardanBakı şəhəri üzrə kitabxanaların sayı 717-dir. Onlardan 88-i, 12.3%-i Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalar, 56-sı, 7.8%-i elmi və elmi müəssisə kitabxalaları, 39-u, 5.4%-i ali təhsil müəssisəsi kitabxanaları, 23-ü, 3.2%-i orta-ixtisas təhsili müəssisələrinin kitabxanaları, 35-i, 4.9%-i ilk peşə ixtisas təhsil müəssisələrində, 354-ü 49.4%-i ümumtəhsil müəssisələrində 32-si 4.5%-imusiqi məktəblərində, 19-u, 2.6%-i səhiyyə müəssisələrində, 71-i, 9.9%-i digər müəssisələrdə yerləşir (2, s.26-27).

Bakı şəhəri üzrə kitabxaların informasiya resurslarının sayı 55320062 nüsxə, ümumi fondun 49.8%-ni, şəhər yerlərində yerləşən kitabxanaların 68.5%-ni təşkil edir.

Qeydolunduğu kimi Bakı şəhəri ölkənin kitabxana informasiya resurslarının formalaşdığı əsas mərkəzlərdən biridir. Belə ki, ölkənin informasiya resurslarının 49, 8 %-i, başqa sözlə yarısı Bakı şəhərində yerləşir. Bu resurslar Bakı şəhərinin rayonları üzrə aşağıdakı kimi yerləşmişdir.Bakı şəhərində 717 kitabxana-informasiya müəssisəsi fəaliyyət göstərir. Bu infrastrukturun kitabxana-informasiya resursunun həcmi 55320062 nüsxə, ümumi fondun 49.8%-ni təşkil edir.Bakı şəhəri ölkənin kitabxana informasiya resurslarının formalaşdığı əsas mərkəzlərdən biridir. Belə ki, 2009-cu ilin statistik müayinənin nəticələrinə görə Azərbaycan Respublikasının iqtisadi və inzibati rayonları üzrəkitabxana resurslarınınhəcmi 110994331 nüsxədir. Ondan 80767634 nüsxəsi, 72, 8%-i şəhər yerlərində, 30226697 nüsxəsi, 27.2%-i kənd yerlərində

yerləşir. Ölkənin informasiya resurslarının 55320062 nüsxəsi, 49, 8 %-i, başqa sözlə yarısı Bakı şəhərində yerləşir (2, s.44). Bu resurslar Bakı şəhərinin rayonları üzrə aşağıdakı kimi yerləşmişdir:

1. Səbail rayonu üzrə- 27942865 nüsxə, Bakı şəhəri üzrə50, 5 %
2. Yasamal rayonu üzrə- 10038152 nüsxə, Bakı şəhəri üzrə18, 1 %
3. Nəsimi rayonu üzrə- 4464512 nüsxə, Bakı şəhəri üzrə8, 0 %
4. Nərimanov rayonu üzrə-2476355 nüsxə, Bakı şəhəri üzrə4, 4 %
5. Sabunçu rayonu üzrə- 2293213 nüsxə, Bakı şəhəri üzrə4, 1 %
6. Binəqədi rayonu üzrə- 2006477 nüsxə, Bakı şəhəri üzrə3, 6 %
7. Xətai rayonu üzrə-1434433 nüsxə, Bakı şəhəri üzrə2, 5 %
8. Xəzər rayonu üzrə- 1395451 nüsxə, Bakı şəhəri üzrə2, 5 %
9. Suraxanı rayonu üzrə- 1198868 nüsxə, Bakı şəhəri üzrə2, 1 %
10. Nizami rayonu üzrə-1150368 nüsxə, Bakı şəhəri üzrə2, 0%
11. Qaradağ rayonu üzrə- 919368 nüsxə, Bakı şəhəri üzrə1, 6 %

Bakı şəhərində yerləşən elmi müəssisə kitabxanalarının fondu öz zənginliyi və xüsusi çəkisi baxımından diqqəti cəlb edir. Bu kitabxanaların informasiya resursları 23719951 nüsxədən ibarətdir ki, bu da ölkə və şəhər kitabxanalarının informasiya resurslarının müvafiq olaraq 21, 4%-inivə 29, 4%-ini təşkil edir. Deməli, bu kitabxanalarda ölkə kitabxanalarının informasiya resurslarının 1, 5%-i, şəhərlər üzrə informasiya resurslarının təqribən 1.3%-i mühafizə olunur. Başqa sözlə, elmi müəssisə kitabxanaları informasiya resurslarının ümumi həcminə görə Təhsil Nazirliyi kitabxanalarının informasiya resurslarından (45%), Mədəniyyət və Turizm Nazirliyi kitabxana şəbəkələrinin informasiya resurslarından (32, 2%) sonra üçüncü yerdə durur. Bu da həmin kitabxana şəbəkəsinin sayca az olmasına baxmayaraq informasiya ehtiyatlarının xüsusi çəkisinə görə ölkənin informasiya arealında xüsusi mövqeyə malik olması deməkdir.

Elmi müəssisə kitabxanalarının informasiya resurslarının tərkibi başqa kitabxana şəbəkələrindən fərqli olaraq informasiya mənbələrinin növlərinə görə də fərqlənir. Əgər kitablar ölkə kitabxanalarının informasiya resurslarının 80, 5%-ni təşkil edirsə, bu kitabxanalarda kitablar 25, 9%-dir. Lakin jurnallar ölkə informasiya resurslarının 3, 5%-ini təşkil etməsinə baxmayaraq, bu kitabxanaların fondlarının 11, 3%-ini təşkil edir. Diqqəti cəlb edən cəhətlərdən biri bəhs edilən kitabxanalarda informasiya resurslarının 60, 1%-ini elektron nəşrlər də daxil olmaqla digər nəşrlər də təşkil edir ki, bu rəqəm ölkə üzrə ümumi informasiya resurslarının 14%-ini təşkil edir. Deməli xüsusi növ nəşrlər həmin kitabxanalarda müvafiq fond üzrə orta göstəricidən 4 dəfədən də artıqdır. Fikrimizcə, elmi-tədqiqat işi ilə məşğul olan mütəxəssislərin informasiya sorğularının ödənilməsinin əsas vasitələrindən olan xüsusi nəşrlər həmin kitabxanaları digər kitabxanalardan fərqləndirən əsas xüsusiyyətlərdən biridir.



Ölkənin kitabxanaların resurslarının 0, 7 %-nin, Bakı şəhərinin kitabxanalarının 8, 3 %-nin yerləşdiyi Səbail rayonunda Bakı şəhər kitabxanalarının informasiya resurslarının 50, 5 %-i cəmləşmişdir. Bu da Səbail rayonunun ölkənin mədəni, informasiya və bütövlükdə kitabxana mühitində çox mühüm rol oynadığını göstərən amillərdən biridir. Bakı şəhəri Səbail rayonu üzrə kitabxanaların sayı 60-dır. Həmin kitabxanalardan 7-si (11, 7%) Mədəniyyət və Turizm Nazirliyinin, 7-si (11, 7%) elmi müəssisələrin, 6-sı (10, 0%) ali təhsil müəssisələrinin, 1-i (1, 7%) ilk peşə-ixtisas təhsili müəssisələrinin, 17-si (28, 2%) ümumtəhsil müəssisələrinin, 4-ü (6, 7%) musiqi məktəblərinin, 1-i (1, 7%) səhiyyə müəssisələrinin, 16-sı (26, 6%) isə digər müəssisələrin payına düşən kitabxanalardır. Səbail rayonunun kitabxana informasiya resurslarının sayı 27942865 nüsxə, ümumi kitabxana fondunun 25.2 %-ni, şəhər yerlərində yerləşən kitabxanaların isə fondunun 34.7%-ni təşkil edir. Onlardan 13178212 nüsxəsini, 47.1%-ni kitablar, 785137 nüsxəsini, 2.8 %-ni jurnallar, 101849 nüsxəsini, 0.4%-niqəzetlər, 1370 nüsxəsini elektron informasiya daşıyıcıları, 13876297 nüsxəsini, 49.7 %-ni digər materiallar təşkil edir (2, s.26-28).

Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi 2011-ci ildəBakı şəhərinin Səbail rayonunda yerləşən kitabxanaların bazasında yaradılmışdır. Yeni qurum özündə Mərkəzi Kitabxana və 6 kitabxana-filialı birləşdirir.Səbail rayon MKS-in Mərkəzi Kitabxanası M.Qorki adına Mərkəzi Səyyar Kitabxana Fondu 1924-cü ildə yaradılmışdır. Kitabxanada işləyənlərin sayı 27 nəfərdir. Onlardan 1 nəfəri ali ixtisas təhsilli, 13 nəfəri ali qeyri ixtisas təhsilli, 14 nəfəri orta ixtisas təhsillikitabxanaçılardır. Kitabxana fondunun ümumi həcmi220160 nüsxədir. Oxucularının ümumi sayı 17453 nəfər, oxucu gəlişi148789nəfər, kitab verilişi404285nüsxədir (1, s.179).

1 saylı filial Ə.Məmmədxanlı adına kütləvi kitabxana1920-ciildə yaradılmışdır. Kitabxanada işləyənlərin sayı 17 nəfərdir. Onlardan 10 nəfəri ali ixtisas təhsilli, 2 nəfəri ali qeyri-ixtisas təhsilli, 5 nəfəri orta-ixtisas təhsilli kitabxanaçılardır. Kitabxana fondunun ümumi həcmi151000 nüsxədir. Oxucularının ümumi sayı 15800 nəfər, oxucu gəlişi33555nəfər, kitab verilişi 197000 nüsxədir (1, s.188).

2 saylı filialM.Seyidzadə adına Mərkəzi Şəhər Uşaq Kitabxanası1889-cuildə yaradılmışdır. Kitabxanada işləyənlərin sayı 21 nəfərdir. Onlardan 4 nəfəri ali ixtisas təhsilli, 5 nəfəri ali qeyri-ixtisas təhsilli, 4 nəfəri orta-ixtisas təhsilli, 8 nəfəri orta təhsillikitabxanaçılardır. Kitabxana fondunun ümumi həcmi 102138 nüsxədir. Oxucularının ümumi sayı 16035 nəfər, oxucu gəlişi 92589 nəfər, kitab verilişi 215216 nüsxədir (1, s.187).

3 saylı filial N.Hikmət adına uşaq kitabxanası1924-cü ildə yaradılmışdır. Kitabxanada işləyənlərinsayı 7 nəfərdir. Onlardan 1 nəfəri ali ixtisas təhsilli, 4 nəfəri ali qeyri-ixtisas təhsilli, 2 nəfəri orta-ixtisas təhsillikitabxanaçılardır.

Kitabxana fondunun ümumi həcmi80856 nüsxədir. Oxucularının ümumi sayı 5550 nəfər, oxucu gəlişi39127nəfər, kitab verilişi106256nüsxədir (6, s.185).

4 saylı filial Bibiheybət qəsəbə kütləvi kitabxanası 1934-cü ildə yaradılmışdır. Kitabxanadaişləyənlərin sayı 3 nəfərdir. Onlardan1 nəfəri orta ixtisas təhsilli, 2 nəfəriopta təhsillidir. Kitabxana fondunun ümumi həcmi 20436 nüsxədir, Oxucularının ümumi sayı 1962 nəfər, oxucu gəlişi18206 nəfər, kitab verilişi21175 nüsxədir (6, s.177). 5 saylı filialİnformasiya Turizm Mərkəzidir.

6 saylı filial N.Nərimanov adına kütləvi kitabxana 1957-ci ildə yaradılmışdır. Kitabxanada işləyənlərin sayı 4 nəfərdir. Onlardan 2 nəfəri ali-ixtisas təhsilli, 1 nəfəri orta-ixtisas təhsilli, 1 nəfəri orta qeyri-ixtisas təhsillidir. Kitabxana fondunun ümumi həcmi50800 nüsxədir, Oxucularının ümumi sayı 5676 nəfər, oxucu gəlşi15865 nəfər, kitab verilişi 66707nüsxədir (1, s.182).

Bakı şəhərinin inzibati rayonları üzrə kitabxanaların sayına görə Milli Elmlər Akademiyasının kitabxana şəbəkəsinin, ali məktəb kitabxanalarının daha çox yerləşdiyi Yasamal rayonu aparıcı yer tutur. İqtisadi rayonda99 kitabxana fəaliyyət göstərir. Bu kitabxanaların 8-i (8, 1%-i) Mədəniyyət və Turizm Nazirliyi sisteminin, 30-u (30, 3%-i) elmi müəssisə kitabxanaları, 9-u (9, 1%-i) ali məktəblərin, 5-i (5, 1%-i) orta ixtisas təhsili müəssisələrinin, 27-si (27, 2%-i) ümumtəhsil məktəblərinin, 4-ü (4%-i) musiqi məktəblərinin, 5-i (5, 4%-i) səhiyyə ocaqlarının, 11-i (11, 1%-i) digər idarə və müəssisə kitabxanalarının payına düşür (2).

Yasamal rayon kitabxanalarının fondu 10038152 nüsxədir və ümumi fondun 9.0%-nə, şəhər yerlərində olan fondun isə 12.4%-nəbərabərdir. Fondun 6914081 nüsxəsini, 68.9%-ni kitablar, 1847812 nüsxəsini, 18.4%-ni jurnallar, 786848 nüsxəsini, 7.8 %-ni qəzetlər, 9720 nüsxəsini, 0.1%-nielektron informasiya daşıyıcıları, 479691 nüsxəsini, 4.85-ni digər materiallar təşkil edir.

Yasamal rayon MKS-in də kitabxana işinin təkmilləşdirilməsi və inkişafı sahəsində özünəməxsus yeri vardır. MKS-in fondu369000 nüsxə təşkil edir.Onlardan azərbaycan dilində 167400, rus və digər dillərdə 201600 nüsxədir. Oxucuların sayı 45.253 nəfərdir, kitab verilişi967048 nüsxədir (19).

MKS bir ildə M.F.Axundov adına Milli Kitabxanadan 217 nüsxə, Respublika kitabxana kollektorundan isə 1076 nüsxə kitab almışdır. Mədəniyyət və Turizm İdarəsinin xətti ilə dünya ədəbiyyatı yazıçılarının əsərlərindən ibarət "Dünya ədəbiyyatı kitabxanası" seriyası ilə nəşr olunmuş kitablardan 420 nüsxə, ekologiya və təbiət elmləri üzrə 12 nüsxə kitab alınmışdır. Kitabxana filialları yeni alınmış kitabların təbliği məqsədi ilə müntəzəm olaraq oxucu konfransları, kitab sərgiləri təşkil edirlər. Kitabxanaların kollektivi bu tədbirlərdə tələbələrin və şagirdlərin fəal çıxış etmələri üçün çalışırlar. Hər oxucunun yaş qrupunu, marağını nəzərə alıb kitab seçiminə yardım edilir, oxuculara kömək məqsədi ilə kataloq və kartotekalar müntəzəm olaraq təzələnir.



MKS öz işini BDU, Texniki Universiteti, Memarlıq və İnşaat Universiteti, Mədəniyyət və İncəsənət Universiteti, Biznes Universiteti, M.Ə.Sabir adına Pedoqoji Kolleci, Şuşa Mədəni-Maarif Kolleci, Fizika-Riyaziyyat Kolleci, Türk Liseyi, İncəsənət Gimnaziyası, 18, 20, 31, 53, 161, 167, 158, 173, 175, 225, 189 saylı orta məktəblərlə 16 saylı musiqi məktəbinin müəllim, tələbə və şagird heyyətləti ilə sıx əməkdaşlıqşəraitində qurur. Kitabxanada aşağıdakı şöbələr fəaliyyət göstəirir: Oxuculara xidmət şöbəsi; Kitabişləmə və komplektləşdirmə şöbəsi; Metodika və biblioqrafiya şöbəsi; Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması şöbəsi; İnformasiya-resurs şöbəsi; Uşaq şöbəsi. Yasamal MKS-ninhazırda4 filialı vardır (19).Filiallarda olan kitab fondunun ümumi həcmi: 332.026 nüsxə, filiallara daxil olunmuş yeni ədəbiyyat bir ildə təxminən 1.455 nüsxə, filiallardan istifadə edən oxucuların ümumi sayı 38.045 nəfər, kitab verilişi 808.356, rədd cavabları 203 olmuşdur(19).

Yasamal rayon MKS-nin Mərkəzi Kitabxanasının yerləşdiyi Vazeh adına kitabxananın əsası 1978-ciildə qoyulmuşdur. 2011-ci ildən isə Mərkəzi Kitabxana kimi fəaliyyət göstərir.Mərkəzi Kitabxananın fondu 2013-cü ildə 62851 nüsxə təşkil etmişdir. Onlardan Azərbaycan dilində 29342, rus dilində 33456, xarici dillərdə 53 nüsxə təşkil edir. 2013-cü ildə oxucuların Mərkəzi Kitabxanaya gəlişi 38.163 nəfər, kitab verilişi74.963 nüsxə təşkil etmişdir (19). Mərkəzi kitabxana və filiallarıəhalininsıx yaşadığı ərazidə yerləşirlər. Bu ərazidəçox sayda yaşayış binaları, uşaq bağçaları, məktəblər, litseylər, bir incəsənət gimnaziyası, Bakı Dövlət Universiteti, Azərbaycan Texniki Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Yasamal rayon İcra Hakimiyyəti, Heydər Əliyev Mərkəzi, Vergilər, Ədliyyə, Ekologiya və Təbii sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Yanğından Mühafizə xidmətinin Yasamal rayon şöbəsi, uşaq və böyüklər üçün poliklinika və s. mədəniyyət, iaşə və sağlamlıq müəssisələri yerləşir. Mərkəzləşdirilmiş Kitabxana Sistemi Mərkəzi Kitabxana, 4 filialı özündə birləşdirir. Mərkəzləşdirilmiş kitabxana sistemində 6 şöbə fəaliyyət göstərir: Oxuculara xidmət şöbəsi, Mərkəzi Kitabxananın uşaq şöbəsi, Komplektləşdirmə və kitabişləmə şöbəsi, Metodika və biblioqrafiya şöbəsi, İnformasiya-resurs şöbəsi və Kitabxana-biblioqrafiyaproseslərinin avtomatlaşdırılması şöbəsi.

Yasamal rayon MKS-nin kitab fondu 339.973 nüsxə təşkil edir. Bu sənədlərdən 44.551 nüsxəsi latın, 96.504 nüsxəsi kiril qrafikası ilə Azərbaycan dilində olan ədəbiyyatdır. İl ərzində MKS-nin fonduna təxminən 2300 nüsxəyə yaxın kitab daxil olmuşdur ki, onlardan 2070 nüsxəsi latın qrafikalı Azərbaycan ədəbiyyatı, 187 nüsxəsi isə xarici dillərdə olan ədəbiyyatdır. 7 ədəd audiovizual sənəd MKS fonduna daxil olmuşdur. Yasamal rayon MKS-nin kitab fondundan 30.164 nüsxə çap məhsulu köhnəldiyinə və siyasi cəhətdən əhəmiyyətini itirdiyinə görə silinmişdir. Bu çap məhsullarından 28.377

nüsxəsi kiril qrafikası ilə olan Azərbaycan ədəbiyyatı, 1787 nüsxəsi isə rus və ingilis dilində olan ədəbiyyatdır(19).

MKS-də kitab fondu ilə müntəzəm olaraq iş aparılır, fondun əlifba və sistemlidüzülüşü daim diqqət mərkəzində olmuşdur. MKS-də ehtiyat fondunun formalaşdırılması istiqamətində əsaslı işlər aparılmışdır. Yasamal rayon MKS-də 2014-cü il üçün kitab verilişi 887.101 nüsxə olmuşdur ki, bunun da 198.002 nüsxəsi latın qrafikalı, 251.752 nüsxəsikiril qrafikalı Azərbaycan ədəbiyyatı, rus dilində 437.238, xarici dillərdə isə 109 nüsxə təşkil etmişdir (19). MKS-nin komplektləşdirmə və kitabişləmə şöbəsi alınan ədəbiyyatların kitabxana fonduna daxil edilməsində, uçotunun aparılması, filiallara paylanılması istiqamətində fəaliyyət göstərmişdir. Filial kitabxanalar vaxtaşırı kitabxana texnikası ilə təmin olunur. Kitabxana işinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, əməyin stimullaşdırılması və əhaliyə kitabxana-informasiya xidmətinin optimallaşdırılması məqsədilə gəlirlərin və müxtəlif büdcədənkənar vəsaitlərin əldə edilməsi bazar iqtisadiyyatı şəraitində kitabxanaçılıq fəaliyyətinin yeni keyfiyyətidir. Bu öz əksini "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunundatapmışdır. Qanunda nəzərdə tutulduğu kimi bu məqsədlə kitabxanalarda büdcədənkənar fondlar formalaşdırılır (Maddə 28). Bu fondlar təsisçilərin payları, hüquqi və fiziki şəxslərin könüllü ayırmaları, qanunvericilikdə müəyyən olunmuş qaydada keçirilən məqsədli kommersiya tədbirlərindən, təsərrüfat fəaliyyəti, pullu xidmətlər, marketinq və digər kommersiya əməliyyatlarından əldə edilən vəsaitlər hesabına yaradılır (Maddə 29). Belə fəaliyyət növlərindən əldə edilən vəsait bütövlükdə kitabxananın sərəncamında qalır (Maddə 31).Yasamal rayon MKS-ində büdcədənkənar kurslar fəaliyyət göstərir. Bir ildə "Microsoft Computer" kursunu və "Rəsm" kursunu dörd nəfər bitirmişdir.

Yasamal rayon MKS-nintərkibinə 4 kitabxana-filial daxildir. Bunlar aşağıdakılardan ibarətdir:1 saylı filial -Ə.Vahid adına kitabxana-muzey;2 saylı filial -A.Şaiq adına uşaq kitabxanası; 3. saylı filial -Q.Musabəyov adına kütləvi kitabxana; 4 saylı filial -X.Natəvan adına uşaq kitabxanası (19).

Q.Musabəyov adına qəsəbə uşaq kitabxanası (5 saylı filial) binasının yararsız halda və zirzəmidə olması səbəbindən 2013-cü ilin avqust ayının 01-dən öz fəaliyyətini dayandırmışdır.Filialın fondu yararsız nəşrlər istisna olunmaqla MKS-nin Mərkəzi Kitabxanasına birləşdirilmişdir. Filialların fondunun ümumi həcmi 277.122nüsxə təşkil etmişdir.İl ərzində filialların fonduna təxminən 1500 nüsxəyə yaxınyeni ədəbiyyat daxil edilir. Filiallar 11 adda qəzet və jurnallarla təmin olunmuşdur. Filiallardan istifadə edən oxucuların ümumi sayı 32.970 nəfər, kitab verilişi 812.138nüsxə təşkil etmişdir.

Yasamal MKS-nin 1 saylı filialı Ə.Vahid adına kitabxana-muzeydir. Kitabxana-muzey 1925-ci ildə yaradılmışdır. Kitabxana fondunun ümumi həcmi 67070 nüsxə, kitablar 67070 nüsxədir. Kitabxanaya hədiyyə olunan kitabların



ümumi sayı 4820 nüsxə, Prezidentin sərəncamı ilə daxil olan kitablar 4810 nüsxədir. Kitabxananın oxucularının(istifadəçilərinin) ümumi sayı 12497 nəfər, oxucu gəlişi 36999, kitab verilişi isə 203654 nüsxədir (1, s.213).

Yasamal MKS-nin 2 saylı filialı A.Şaiq adına uşaq kitabxanasıdır. Kitabxana 1953-cü ildəyaradılmışdır. A.Şaiq adına uşaq kitabxananın fondunun ümumi həcmi 62865 nüsxə, kitablar 62 865, prezidentin sərəncamı ilə daxil olan kitablar 1027 nüsxə, M.F.Axundov adına Milli Kitabxanadan daxil olan kitablar 146 nüsxədir. A.Şaiq adına uşaq kitabxanasında oxucuların ümumi sayı 5267 nəfərdir. Oxucu gəlişi 30155 nüsxə, kitab verilişi 76129 nüsxədir (1, s.213).

YasamalMKS-nin 3 saylı filialıQ.Musabəyov adına kütləvi kitabxanadır. Bu kitabxana 1957-ci ildə yaradılmışdır. Kitabxananın fondunun ümumi həcmi 90778 nüsxə, hədiyyə olunan kitablar 2005-ci ildə 905 nüsxə, digər mənbələrdən daxil olan kitablar 250 nüsxədir. Q.Musabəyov adına kütləvi kitabxanada oxucuların ümumi sayı 2005 nəfər, kitab verilişi 49500-dür.

Yasamal MKS-nin 4 saylı filialı X.Natəvan adına Uşaq kitabxanasıdır. Kitabxana 1904-cü ildə yaradılmışdır. XX əsrinəvvəllərində yaradılmış qədim Bakı kitabxanalarındandır. X.Natəvan adına Uşaq kitabxananın fondunun ümumi həcmi 59131 nüsxə, hədiyyə olunan kitablar2005-ci ildə 4553 nüsxədir. X.Natəvan adına Uşaq kitabxananın oxucuların ümumi sayı 2005 nəfər, kitab verilişi 41890-dır (1, s.213).

Qeyd etmək lazımdır ki, Yasamal rayon MKS kitabxana-filialları demək olar ki, hamısı eyni ərazidə yerləşir. İl ərzində kitabxanaların maddi-texniki bazası gücləndirilimiş, yeni komputer və printer dəstləri ilə təmin olunmuşlar. Filiallarla müntəzəm olaraq elmi metodiki iş aparılmış, filiallara gedişlər həyata keçirilmiş, onların işinin yaxşılaşdırılmasına, oxuculara xidmətin səmərəliliyinin artırılmasına çalışılmışdır. Kitabxana filialları Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin vəBakı Şəhər Mədəniyyət və Turzim İdarəsinin təşkil etdiyi bütün tədbirlərdə fəal iştirak etmiş, keçirilən müsabiqələrdə təmsil olunmuşlar.

Müstəqillik illərində Yasamal rayon MKS-ninmaddi-texniki bazası bir qədər gücləndirilmiş, bir sıra avadanlıq və inventarlarla zənginləşdirilmişdir. Filialların maddi-texniki bazasının gücləndirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. 1 saylı filial cari təmir olunmuş, yeni mebellərlə təchiz edilmişdir. Yeni alınan ədəbiyyatlartələbat və profillərə uyğun olaraq kitabxana filialları arasında bölüşdürülmüşdür. Yasamal rayon MKS-nin Mərkəzi Kitabxanası və bütün filialları fasiləsiz internetlə və Wi-Fi zonası ilə təchiz olunmuşdur. Oxu zallarında oxucuların da istifadəsi üçün kompyuterlər qoyulmuşdur. MKS-nin daha zəngin ədəbiyyatlarla, oxucular tərəfindən tez-tez soruşulan yeni nəşrlərlə təmin olunmasına, kitabxana binalarının təmirinə,

elektron kataloqun və elektron kitabxananınfəaliyyət göstərməsi üçün proqram təminatına da böyük ehtiyac vardır

Nəticə: Nəticə olaraq qeyd etmək olar ki, Yasamal və Səbail rayonları kitabxana-biblioqrafik ehtiyatlarının yerləşməsinə və burada kitabxana-informasiya fəaliyyətinin təşkilinə görəBakı şəhər kitabxana sistemi içərisində ən nümunəvilərindəndir... Lakin burada kitabxana biblioqrafik ehtiyatın yerləşdirilməsində müəyyən nöqsanlar vardır. Kitabxanalar, informasiya müəssisələri bu rayonlarda bir-birinə yaxın məsafədə yerləşirlər. Bubütövlükdə Yasamal və Səbail rayonlarının əhalisinin kitabxana-biblioqrafik informasiya təminatında problemlər yaradır.

## ƏDƏBİYYAT


1.Azərbaycanda kitabxanaları XXI əsrin informasiya məkanında. I və II c. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.B.: Nurlar, 2007, 820 s.
2."Kitabxanaların fəaliyyəti haqqında" statistik müayinənin nəticələri barədə: Statistik bülleten /Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2009, 86 s.
3. http://www.azerbaijans.com/content_464_az.html
4. http://anl.az/tarix.php
5. qaradag-mks@mail.ru
6.www.mct.gov.az
7. https://sabail MKS Hesabatlar
8.Binəqədi rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
9. C.Cabbarlı adına RespublikaGənclər Kitabxanasının 2000-2013-cü il hesabatları.
10. Xəzər rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
11. Xətai RayonuMKS-nin 2000-2013-cü il hesabatları.
12. Qaradağ rayonu MKS-nin 2000-2013-cü il hesabatları.
13. Nərimanov rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
14. Nəsimi rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
15. Nizami rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
16. Sabunçu rayonuMKS-nin 2000-2013-cü il hesabatları Səbail rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
17. Səbail rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
18. Suraxanı rayonuMKS-nin 2000-2013-cü il hesabatları.
19. Yasamal rayonuMKS-nin 2000-2013-cü il hesabatları.




O.Guliyev

## THE LOCATİON AND STRUCTURE ANALYSİS OF LİBRARY AND INFORMATİON RESOURCES İN BAKU (FİRST ARTİCLE)


### SUMMARY

The article provides information about the problems of location and production structure of library information resources of Sabail and Yasamal administration districts of Baku which is the largest city of Azerbaijan.


О.Кулиев

## МЕСТОПОЛОЖЕНИЯ И АНАЛИЗ СТРАСЛЕВОЙБИБЛИОТЕЧНО ИНФОРМАЦИОННЫХ РЕСУРСОВ В БАКУ (ПЕРВАЯ СТАТЬЯ)


### РЕЗЮМЕ

В статье предоставлена информация о проблемах местоположение и его производственной структуры библиотечные информационные ресурсов Сабаильском и Ясамальском административных районах Баку которая является самым крупным городам Азербайджанской Республики.